# İosif Ploşko və "İsmailiyyə" sarayı

Sevinc Cəfərova,
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistri
E-mail: *sevinjjafarova21@gmail.com*

Azərbaycan insanların məskunlaşdığı ən qədim ərazilərdən biridir. Burada yurd-yuva salan insanlar tarixboyu müxtəlif mədəniyyət nümunələri yaradaraq Azərbaycan incəsənətinə xidmət etmişlər. Həmin səbəbdəndir ki, Azərbaycan incəsənəti özündə müxtəlif dövrləri və onların mədəniyyətlərini əks etdirir. Məlum olduğu kimi, ölkə ərazisində ilkin memarlıq tarixi və mədəniyyəti qədim mağaralarda formalaşıb. Müxtəlif ərazilərdə ibtidai insanların məskunlaşdığı mağaralar vardır. Ərazimizdə olan ən qədim və məşhur mağaralardan biri Azıx mağarasıdır. Azərbaycan memarlığının çoxəsrlik mədəni tarixi vardır. Hansı ki o dövrdə Azərbaycanın milli memarlıq ənənələri formalaşıb. Orta əsrlərdə isə çeşidli memarlıq məktəbləri meydana gəldi. Azərbaycan memarlığı özündə müxtəlif – ibtidai, islam, xanlıqlar, XIX–XX əsr və müasir dövr memarlığını əks etdirir. Hər birinin də öz bədii xüsusiyyətləri vardır, həmin dövrlərdə olmuş tarixi əhəmiyyətli hadisələr memarlığımıza öz təsirini göstərmişdir.

XIX–XX yüzilliklər Azərbaycan tarixinin çox ziddiyyətli və mürəkkəb dövrüdür. XIX əsrin ilk illərində Azərbaycan Rusiyanın yürütdüyü işğalçılıq siyasətinin nəticəsi olaraq imperiya tərkibinə müxtəlif quberniyalar formasında birləşdirildi. Xüsusilə 1850-ci illərdən Azərbaycan memarlığı dünya və Avropa memarlığı ilə tanış olmağa başladı. Bu tanışlıq memarlığımıza təsirsiz ötüşmədi və hazırda da görkəmli memarlıq abidələri kimi seyr edilən binaların inşası ilə nəticələndi. XX əsr isə Azərbaycan memarlığının daha da inkişaf etdiyi, Bakının dünyəvi paytaxt şəhəri kimi tərəqqidə olduğu dövrdür. Sözügedən müddətdə Avropa memarlığından bəhrələnmə intensiv idi. 1930-cu illər, yəni ölkəmizin Sovet İttifaqına daxil edilən respublikalardan biri olmasından sonra Azərbaycan memarlığı sovet memarlığının bir hissəsi kimi inkişaf etməyə başladı. Bu, sadəcə, hökumətin siyasətinə bağlı deyildi, Azərbaycanda neft buruqlarının istifadəyə verilməsiylə əldə edilən böyük kapitalın bütün sahələr kimi memarlığın tərəqqisində də əhəmiyyətli rolu olmuşdur. Belə ki, inzibati-ictimai binalarla yanaşı, neft milyonçularının sifarişi ilə bir çox şəxsi mülklər tikilirdi. Şəxsi mülklər öz layihələrinə görə dövlət binalarından geri qalmır, memarlıq üslubları ilə Bakı memarlığını zənginləşdirirdi.

XX əsrdə Azərbaycan memarlığı bir neçə şərti mərhələni əhatə edir. XX yüzilliyin 30-cu illərindən Azərbaycan memarlığında yeni mərhələ başlanır. Memarlıqda mütərəqqi yeniliklər bu vaxt xüsusilə Bakı şəhərinin timsalında özünü büruzə verməyə başlayır. Paytaxtın yenidən qurulması, ictimai-inzibati binaların tikilməsi bu dövrün xarakterik xüsusiyyətlərindəndir. 1950-ci illərdən Bakı, Gəncə, Sumqayıt, Əlibayramlı və s. şəhərlərdə müasir memarlıq baxımından bir sıra əhəmiyyətli ictimai binaların tikintisi prosesi start götürdü. 1960-da isə Azərbaycan şəhərsalma və memarlığının inkişafında keyfiyyətcə yeni dövr başlanır. Azərbaycan Respublikasının paytaxtı Bakı məhz bu illərdə paytaxt tipli böyük şəhərə çevrildi *(1)*.

Sovet dövründə Azərbaycana bir çox xarici memarlar heykəltəraşlar dəvət edilmişdi. Əsasən Bakı şəhərində yaradıcılıq fəaliyyəti ilə məşğul olan mütəxəssislər Bakı memarlıq ansamblının formalaşmasında çox mühüm rol oynamışlar. XIX əsrin sonu və XX əsrdə ölkəmizdə fəaliyyət göstərən memarlara misal olaraq N.A. fon der Nonne , İ.V.Qoslavski, A.Eyxler, İ.K.Ploşko kimi məşhurların adlarını qeyd etmək olar. Adları çəkilən görkəmli insanların layihələr Azərbaycan memarlığının formalaşmasında mühüm rol oynamış müxtəlif mədəni xüsusiyyətlərlə zəngin memarlığımızı Avropa memarlıq ənənələrinin təsiri ilə bir az da zənginləşdirmişdir. Memarların hər biri klassik və Avropa memarlıq ənənələrinə əsaslansalar da, Aərbaycan milli memarlıq ənənələrindən də yan ötməmişlər. 1931-ci ildə Sovet İttifaqının verdiyi qərara görə, Azərbaycanda tikilən memarlıq əsərlərində millilik xüsusiyyəti əks olunmalı idi. Xüsusilə sovet hökumətinin bu qərarından sonra klassik memarlıq ənənələri, Avropa memarlıq ənənələri və Azərbaycanın milli memarlıq ənənələrinin uyğunlaşdırılması nəticəsində Bakıda gözoxşayan və maraqlı tərtibatlı memarlıq abidələri inşa edilmişdir. Azərbaycan memarlığının bu tərzli formalaşması gələcək eklektik Azərbaycan memarlığının xəbərçisi idi.

XIX əsrin sonları və XX əsrdə Azərbaycan memarlığının formalaşmasında və inkişafında əhəmiyyətli rol oynayan memarlardan biri İosif Ploşkodur. Milliyyətcə polyak olan Ploşko həm memar, həm də mühəndis idi. Akademik təhsilə malik İosif Ploşko əvvəlcə Rusiya Rəssamlıq Akademiyasında oxumuş, sonra təhsilini Peterburqda Mülki Mühəndislər Universitetində davam etdirmişdir. Təxminən iki il müddətində Kiyevdə işləyən memar o dövrdə Bakıda fəaliyyət göstərən digər görkəmli polyak memarı İosif Qoslavskinin dəvəti ilə yaradıcılığının böyük hissəsini təşkil edəcək Bakıya gəlib və burada çalışmağa başlayıb. Ploşko Bakıdakı fəaliyyəti müddətində bir çox həm dövlət binalarının, həm də şəxsi mülklərin memarı olub. Eyni zamanda o, Bakının baş memarı vəzifəsində çalışıb və təxminən otuz ilə yaxın Azərbaycanda yaşadıqdan sonra Polşaya qayıdıb. Memarın bu müddət ərzində yaradıcılığı çox məhsuldardır və sadəcə, Bakı ilə sərhədlənməyərək onu dövrünün görkəmli memarları sırasına daxil edib.


"İsmailiyyə" sarayı

Gənc memar Ploşko şəhərin memarlıq-inşaat həyatı ilə yaxından tanış olur, yerli tikinti materiallarını, əsas etibarilə gözəl bədii keyfiyyətlərə malik əhəngdaşını öyrənir, sonralar isə öz tikililərində ondan məharətlə istifadə edir. Bununla yanaşı, o zaman bərbad vəziyyətdə və dağılmaqda olan Bakı qalasının nadir abidələri də diqqətini cəlb edir. Ploşko öz həcm plastikası, daş üzərində nəfis oyması və ornament motivlərinin fantaziyası ilə insanı heyran edən Şirvanşahlar sarayı ansamblına xüsusilə böyük maraq göstərir *(2)*.

Görkəmli memarın yaradıcılığının ən uğurlu işlərindən biri müasir dövrdə Azərbaycanın ölkə əhəmiyyətli abidələrindən biri olan "İsmailiyyə" sarayıdır. Elə "İsmailiyyə" sarayının timsalında XX əsrdə Bakı milyonçularının Azərbaycan memarlığının zənginləşməsindəki xidmətlərini görmək mümkündür. Belə ki, bu görkəmli bina Bakı milyonçusu Musa Nağıyev tərəfindən İosif Ploşkoya sifariş edilmiş şəxsi mülk idi. Musa Nağıyev binanı erkən yaşda həyatını itirmiş oğlunun xatirəsinə inşa etdirmişdir.

Binanın həm yer seçiminin, həm də inşa edilməsinin olduqca maraqlı tarixçəsi var. Mənbələrdə qeyd olunur ki, Ağa Musanın oğlu İsmayıl vərəm xəstəliyinə tutulur. Bakı milyonçularının ailələrini müalicə edən Varatapedov adlı həkim İsmayılı müayinə etdikdən sonra Musa Nağıyevə deyir ki, oğlunun vəziyyəti çox ağırdır. Əgər tez tədbir görülməsə, ölə bilər. Amma 50 min manata qədər xərci var. Hətta həkim milyonçuya təklif edir ki, oğlunu özü İsveçrəyə aparıb 1 il ərzində müalicə etdirib gətirəcək. Guya Musa Nağıyev yalnız 10 min manat verə biləcəyini deyir. Söhbət bununla da bitir. Ancaq İsmayılın halının günü-gündən pisləşdiyini görən milyonçu son anda müalicə üçün 50 min manat verməyə razılaşır. Lakin Ağa Musa gecikir. Belə ki, həkim xəstəni yoxlayandan sonra xəbər verir ki, iş-işdən keçib və indi onu heç 100 min manatla da müalicə etmək mümkün deyil. Hacı Zeynalabdin Tağıyevin xahişi ilə həkim Məhəmməd Rza Vəkilov İsmayılı İsveçrəyə aparır. Müalicədən sonra onun halı nisbətən yaxşılaşsa da, çox yaşamır. Ağa Musaya oğlunun xatirəsinə bina tikdirmək təklifi isə Hacı Zeynalabdin Tağıyevdən gəlir *(3)*.

Qeyd etmək lazımdır ki, sonralar Ağa Musa Nağıyevin binanın inşası üçün ayırdığı pul vəsaiti bitdikdə Hacı Zeynalabdin Tağıyev özü də binanın inşasının davam edə bilməsi üçün pul ödəmişdir. Nağıyevlə yanaşı, binanın inşasının əsas təşəbbüskarı Hacı Zeynalabdin də "İsmailiyyə" sarayının tikilməsinə maddi və mənəvi tərəfdən olduqca böyük dəstək verib. "İsmailiyyə" sarayının tikildiyi ərazinin də maraqlı tarixçəsi vardır. Belə ki, İstiqlaliyyət küçəsi o dövrdə Şəhər Duması kimi müxtəlif inzibati-ictimai binaların yerləşdiyi əsas mərkəzi magistral idi. "İsmailiyyə" binasının tutduğu ərazi XX əsrin əvvəllərində boş idi və elə saray tikilənə qədər də boş qalmışdı. Bu ərazi üzərində mübahisəli hadisələr baş vermişdi.

Bakıda yaşayan müsəlmanlar bu ərazidə digər islam ölkələrində olduğu kimi gözəl bir məscidin inşasını arzu edirdilər, lakin Şəhər Duması bu məscidin tikilməsinə məlum səbəblərdən icazə vermirdi. Mənbələrdə qeyd olunur ki, 1893-cü ildə "Cümə" məscidinin inşası üçün sahə hazırlanmasına başlanıldı. Məscidi fontanları və hovuzları olan parkda yerləşdirmək nəzərdə tutulmuşdu. Bakı müsəlmanları məscidin yaşıllıqlar, fontanlar və şəffaf sulu hovuzlar arasında gözəl mənzərəli memarlıq mühitinin təmsil edildiyi İstanbul, Təbriz, İsfahan və başqa Şərq şəhərlərindəki məşhur məscid nümunələrini təkrarlayan dini ansambl yaratmasını istəyirdilər *(4)*. İcazənin yubanma səbəblərindən biri də məscidin tikilməsi arzu olunan ərazinin yaxınlığında inşa edilmiş və bir vaxtlar Cənubi Qafqazın ən böyük kilsəsi olan "Aleksandr Nevski" kilsəsi idi. Rus hökuməti şəhərin mərkəzində Qafqazın ən böyük rus pravoslav kilsəsi ilə yanaşı, bir müsəlman məscidinin inşa edilməsində maraqlı deyildi. Bütün belə mübahisəli və birmənalı olmayan hadisələr nəticəsində boş qalmış ərazi "İsmailiyyə" sarayının tikilməsi ilə ölkə əhəmiyyətli binanın, tarixi əhəmiyyətli memarlıq incisinin yerləşdiyi məkana çevrildi. "İsmailiyyə" binasının inşası ilə Azərbaycan memarlığı hələ XX əsrin ilk illərində özündə Avropa memarlıq ənənələrini savadlı formada əks etdirən memarlıq abidəsi qazanmış oldu. "İsmailiyyə" binasının təməli 1908-ci ildə çox təntənəli formada qoyuldu. Ağa Musa Nağıyevin mərhum oğlunun xatirəsinə ithafı, inşasında Hacı Zeynalabdinin böyük rolu və memarın Ploşko olması binanın əzəmətini və hörmətini artıran səbəblərdən idi. 1913-cü ildə sarayın inşası tamamlandı, beləliklə, XIX–XX əsr Azərbaycan memarlığının inkişaf xarakteristikasını və Avropa memarlıq ənənələrinin, xüsusilə qoti-

ka üslubunun odövrkü Azərbaycan memarlığına təsirini özündə əks etdirən bina Bakının mərkəzində yerləşən tarixi əhəmiyyətli memarlıq abidələrindən biri oldu.

Ploşko tərəfindən işlənmiş memarlıq layihəsində qotika üslubunun səbəbsiz seçilmədiyi çox açıq formada aydındır. Qeyd etmək lazımdır ki, qotik tərzli binalar Bakı memarlıq ansamblına çox uyğun gəlirdi. Biz bu yaraşığı və zənginliyi tək "İsmailiyyə"də deyil, bir çox digər binalarda, o cümlədən "Səadət" sarayının simasında görə bilərik. Qotika tərzi Ploşkonun yaradıcılığında da əsas yerlərdən birini tuturdu. Olduqca monumental və əzəmətli eksteryerə sahib olan memarlıq abidəsi monumentallığına baxmayaraq ağır görünmür, əksinə, Ploşko müxtəlif dekorativ tərzli vasitələrlə binaya yüngül görünüş verməyi bacarmışdı. Bu isə "İsmailiyyə" sarayını çox baxımlı memarlıq abidəsinə çevirir. Məlumdur ki, qotik tərzli binalar əsasən şaquli meyilli və çox pəncərəli formada olur. "İsmailiyyə" sarayında da qotik tərzli pəncərələrdən istifadə edilib, lakin memar bunu Bakı memarlıq ansamblının üslubuna xələl gətirməyəcək tərzdə həyata keçirib. Bina eksteryer baxımından dekorativ elementlərlə bəzədilib. Binanın dekorativ elementləri antik və İntibah dövrü memarlıq elementlərini xatırladır. Qotik tərzli olmağına baxmayaraq memarlıq abidəsi klassik memarlıq qanunlarına əsaslanır. "İsmailiyyə" binasının dekorativ bəzəkləri bütünlüklə həll olunmuş və bir-birinə uyğun elementlərdən ibarət kompozisiyadır. Sarayın həm eksteryer, həm də interyer həllindən olduqca düşünülmüş formada layihələndirildiyi və hər bir detalın memar tərəfindən düşünülmüş şəkildə yerləşdirildiyi aydın olur. Eksteryer qotik tərzli olsa da, binanın interyeri klassik ənənələri özündə əks etdirir. Foyesi ionik sütunludür, binanın xaricindəki bəzək elementlərində də akant yarpaqları kimi bir sıra antik memarlıq elementlərini görmək mümkündür. Binanın memarlıq dəyərini artıran xüsusiyyətlərdən biri odur ki, eksteryerdən qotikanın izini daşıyan memarlıq formaları interyerdən klassik formalarla əvəzlənmişdir. Tikintinin erkən yaşda həyatını itirmiş gəncə həsr edildiyini unutmayan memar tərəfindən binanın həm eksteryer, həm də interyer həllində iti formaların olduqca zərif formalarla əvəzlənməsi ilə nakam İsmayıl Nağıyevin həyatına və erkən ölümünə işarə vurulduğu duyulmaqdadır.

"İsmailiyyə" sarayının sonrakı illərdə aqibəti o qədər də ürəkaçan olmamışdır. Belə ki, XX əsrin tarixi ziddiyyətləri memarlıq abidələrinə də zərər verdi. Saray 1918-ci ildə baş vermiş Mart hadisələrində zərər çəkdi. Mənbələrdə qeyd olunur ki, Mart hadisələri zamanı bina ermənilər tərəfindən top atəşinə tutulmuş, həmçinin binanın üzərindəki "İsmailiyyə" sözü də qoparılmışdı, lakin sarayı məhv edə bilməmişdilər. Bu hadisələrdən sonra ciddi bərpaya ehtiyac yarandı və binaya Azərbaycan Xalq Cümhuriyyəti dövründə böyük dəyər verilərək onun bərpası üçün lazımi məbləğ hesablandı. Sovetlər dövründə zərərçəkmiş binanın sökülməsi qərarı verilmişdi. Bakı milyonçularının zəhməti və xatirəsi ilə bağlı, eyni zamanda Xalq Cümhuriyyətinin verdiyi dəyərdən sonra şəhər əhalisi binanın qarşısına yığılaraq söküntünün qarşısını aldı. Nəticədə hökumət binanı sökməsə də, öz siyasətindən əl çəkmədi: bərpası zamanı fasadda bəzi dəyişikliklər edilərək Quran ayələri və hədislərin yer aldığı medalyonlarda beşguşəli ulduzlar yerləşdirdi. ❖


**Ədəbiyyat:**

1. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı: Şərq–Qərb, 2007.
2. *www.polonia-baku.org. Józef PŁOSZKO.*
3. Sultanova P. "İsmailiyyə" binası: bir gənc xatirəsi üçün, bir millətin iftixarı naminə. "525-ci qəzet", 2011.
4. Fətullayev-Fiqarov Şamil. Memar İ.K.Ploşko – "İsmailiyyə"nin memarı. Bakı: Şərq–Qərb, 2013.
5. Azərbaycan Respublikası Memarlar İttifaqı. Bakının Memarlıq Ensiklopediyası. Bakı: Şərq-Qərb, 2013.



**Резюме**

В статье приведены общие сведения об азербайджанской архитектуре и художественных особенностях ее развития в XIX и XX вв., А также упоминаются имена ряда зарубежных архитекторов, которые были вовлечены в творческую деятельность в Азербайджане.



**Ключевые слова:** архитектура, архитектор, памятник, традиция, влияние.



**Summary**

In the article, general information has been given about Azerbaijani architecture and artistic features of its development in XIX and XX centuries and names of a number of foreign architects who have been involved in creative activities in Azerbaijan have been mentioned. Influence of European architectural traditions and styles on Azerbaijani architecture has been studied in the case of eminent polish architect Joseph Ploshko's creative work and has been analysed in the example of Ismailia Palace.



**Key words:** architecture, architect, monument,tradition, influence.